AZCD
Group

# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ SİYASƏTİ

"AZCD Group" QSC-nin (bundan sonra "Cəmiyyət" adlanacaq) başlıca məqsədi öz işində Ətraf Mühitin Mühafizəsi üzrə Siyasəti layihələndirmə, tikinti, istehsal və istismar prosesləri zamanı ətraf mühitin qorunması və təbii resurslara təsirlərin azadılmasına yönəldilmiş tədbirləri prioritet hesab edir və aşağıdakılara önəm verir:

- ISO 14001:2015 standartının tələblərinə uyğun olaraq Ətraf Mühitin Mühafizəsi İdarəetmə Sistemini işini qurmaq və inkişaf etdirmək;
- Təbii ehtiyatların mühafizəsi ilə bağlı ölkənin tərəfdar çıxdığı beynəlxalq razılaşma sənədləri (konvensiyalar, sazişlər, protokollar və s.), o cümlədən beynəlxalq və yerli qanunvericilik tələblərinə riayət etmək;
- Fəaliyyət göstərdiyimiz sahələrdə ictimaiyyət və Ətraf mühit üçün yarana biləcək ekoloji riskləri maksimum səviyyədə azaltmaq;
- Ətraf mühitə edilə biləcək təsirləri nəzərə alaraq fəaliyyət zamanı bütün işçiləri müvafiq və dolğun məlumatlarla təlimatlandırmaq;
- Layihələndirmə tikinti, istehsal və istismar prosesi zamanı ekoloji aspektlərin ətraf mühitə təsirinin davamlı monitorinqini həyata keçirmək;
- Cəmiyyət ilə əlaqədə olan podratçılara, firmalara,müəssisələrə və s. partnyorlara ISO 14001:2015 standartın (Ətraf mühitin idarəedilməsi sistemi) tələblərinin əlçatan olmasını təmin etmək.

"AZCD Group" QSC bütün prinsiplərə əməl etməklə iş zamanı ətraf mühitin təhlükəsizliyinə zərər vura biləcək hər hansı təhlükələrin qarşısının alınması və ya minimuma endirilməsi üçün mümkün olan bütün imkanlardan istifadə etməklə bu siyasətin həyata keçirilməsinə nail olmağa çalışır.

Direktor:
Fuad Ələkbərov

Avqust 2021

| AZCD-OS-001 | Tarix: 02.08.2021 | Təftiş: 002 |
| --- | --- | --- |